# Azərbaycan Respublikası Vergi Məcəlləsində dəyişikliklərlə bağlı 10 saylı Ərazi Vergilər İdarəsində seminar-müşavirə

**Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının 21 dekabr 2012-ci il tarixdə 509- IVQD nömrəli Qanunu qəbul olunmuşdur.**




**Qanunun tətbiq edilməsi barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2012-ci ilin dekabr ayının 29-da Fərman imzalamışdır. Bu qanun artıq 1 yanvar 2013-cü ildən qüvvəyə minmişdir. Vergi orqanları yanvar ayının birinci iş günlərindən yerlərdə yeni dəyişiklikləri izah etməyə başlamışlar.**

10 Saylı Ərazi Vergilər idarəsi yanvar ayının 16-da büdcədən maliyyələşən idarə və müəssisə rəhbərlərinin, mühasiblərin iştirakı ilə seminar-müşavirə keçirmişdir. Seminar-müşavirədə ərazi idarəsinin şöbə müdirləri iştirak etmişlər.

Tədbiri vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi İntiqam Hidayətzadə açmış və dəyişiklikləri doğuran səbəblərdən danışmışdır. O, qeyd etmişdir ki, vergi orqanları yarandığı günlərdən ölkə rəhbərliyi tərəfindən həyata keçirilən islahatlar 2012-ci ildə də davam etdirilmişdir. İsalahatların aparılması isə bir qayda olaraq ölkədə vergi sisteminin təkmilləşdirilməsi, vergi ödəyicilərinin hüquqlarının müdafiəsi, onların mənafelərinin qorunması, vergi güzəştlərinin artırılması, vergi inzibatçılığının və vergi nəzarətinin təkmilləşdirilməsi məqsədini daşıyır. Eyni zamanda vergi xidmətində informasiya texnologiyalarının tətbiqi və genişlənməsi istiqamətində qazanılan nailiyyətlər vergi sistemində dəyişikliklərin aparılması zərurətini qarşıya qoyur. Cənab Prezidentin Fərmanı ilə aparılan bu dəyişikliklər ən böyük dəyişikliklər hesab edilir. İ. Hidayətzadə aparılan dəyişikliklərin əsas istiqamətlərindən və mahiyyətindən danışaraq qeyd etmişdir ki, Məcəllənin 65 maddəsinə 131 bənd üzrə 176 əlavə və dəyişikliklər olunmuşdur.

Sonra məruzəçi Vergi Məcəlləsində edilən dəyişiklikləri hər bir maddə üzrə ayrı-ayrılıqda izah etdi, yeniliklərə aydınlıq gətirdi. Sonda verilən suallar cavablandırıldı, qaranlıq məqamlara bir daha aydınlıq gətirildi.

**Nadir ATAKİŞİYEV.**

# Doğma ölkəmizdə

### «Dövlətlərarası barışıq və dostluq: Almaniya və Fransa» mövzusunda konfrans

Azərbaycan Diplomatik Akademiyasında (ADA) «Dövlətlərarası barışıq və dostluq: Almaniya və Fransa» mövzusunda konfrans keçirilmişdir. ADA-nın professor-müəllim heyəti və tələbələri, Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, gənclər təşkilatlarının və kütləvi informasiya vasitələrinin təmsilçiləri iştirak edən tədbir Almaniya və Fransa dövlətləri arasında barışıq yaradan «Yelisey» müqaviləsinin 50-ci ildönümünə həsr olunmuşdur.

### Azərbaycanda ilk dəfə süni ürək köçürülmüşdür

Bu günlərdə Azərbaycan Mərkəzi Klinik Xəstəxanasında 44 yaşlı Balakən sakini İbrahim Mansurova ABŞ istehsalı olan uzun müddətli süni ürək köçürülməsi əməliyyatı uğurla başa çatmışdır. Xəstə artıq özünü yaxşı hiss edir. Yaxın günlərdə evə buraxılacaqdır.

### «Ümumi Aviasiya Məkanı sazişi» ətrafında danışıqlara başlanmışdır

Yanvar ayının 24-də Bakıda Avropa İttifaqı (Aİ) ilə Azərbaycan arasında «Ümumi Aviasiya Məkanı Sazişi» ətrafında danışıqların ilkin mərhələsi keçirilmişdir. Danışıqlarda Azərbaycan Dövlət Mülki Aviasiya Adminstrasiyasının rəhbəriyi və Xarici İşlər Nazirliyinin nümayəndələri iştirak etmişlər.

Danışıqların mahiyyəti ondan ibarətdir ki, belə bir saziş imzalansa Azərbaycan aviaşirkətləri Avropa bazarına, eləcə də Aİ ölkələrinin şirkətləri Azərbaycan bazarına geniş yol açılacaqdır. Yəni bu yol qarşılıqlı olacaqdır.

### Azərbaycan və Çinin beyin mərkəzləri arasında qarşılıqlı anlaşma və əməkdaşlıq

Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin (SAM) nümayəndə heyətinin Çinə səfəri çərçivəsində SAM ilə Şərqi Avropa və Mərkəzi Asiya tədqiqat İnstitutları arasında qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında memorandum imzalanmışdır. Xatırladaq ki, hər iki beyin mərkəzi bir neçə birgə tədqiqat layihələri həyata keçirir.

### Fermerlər 23,4 milyon manatlıq texnika almışlar

Ümumilikdə «Aqrolizinq» ASC-nin xətti ilə keçən il kənd təsərrüfatı məhsulları istehsalçılarına 28,4 milyon manat dəyərində müxtəlif növ texnika satılmışdır. Satılan texnikanın 604 ədədini müxtəlif növ traktor, 651-ni kotan, 154-nü səpici aqreqat, 121-ni otbiçən, 96-nı çiləyəci və tozlayıcı maşın, 48-ni taxılyığan kombayn, 33-nü bağarası frez, 290-nı gübrəsəpən maşın, 23-nü ot dırmıqları, 15-ni traktor yedəkləri (qoşqular), 12-ni taxıl-toxum təmizləyən və 135-ni isə digər kənd təsərrüfatı maşın və avadanlıqları təşkil etmişdir.

# Bağça yaşlı uşaqlarda təbiətə məhəbbət tərbiyəsi

Ətraf mühitin gözəlliyi, insanların sağlamlığı təbiətin sərvətlərinin qorunması və mühafizə edilib saxlanması ilə bağlıdır. Təbiət vətəndir. Onunla tanışlıq vətənlə tanış olmaq və onu qorumaq deməkdir. Ətraf mühitin qorunması, doğma təbiətə qayğı ümumxalq işidir. Bu işin həyata keçirilməsində peşə və vəzifələrindən asılı olmayaraq bütün vətəndaşlar iştirak etməlidirlər. Uşaqların həmin prosesdə iştirakını təmin etməkdə məktəbəqədər tərbiyə müəssisələri xüsusi rol oynayır. Bu baxımdan uşaq bağçası tərbiyəçisinin qarşısında daha məsul vəzifələr durur. Təbiətdə baş verən ümumi qanunauyğunluqları, onların vəhdəti və qarşılıqlı münasibəti haqqında uşaqlara sadə, anlaşıqlı biliklər verilməlidir. Bu isə onlarda təbiətə məhəbbət tərbiyəsinin formalaşmasına böyük təsir göstərir. Təbiətə qayğı hissini tərbiyə etmək üçün ilk növbədə uşaqlara təbiəti sevdirmək lazımdır. Bu hiss vətənpərvərlik hissinin bir hissəsidir.

Uşaq bağçasında doğma təbiətə məhəbbət uşaqların təbiətə ünsiyyətindən başlayır. Bu ünsiyyət ekskursiya, gəzinti, məşğələ, təbiətdə əmək və s. proseslərdə həyata keçirilir. Böyük rus pedaqoqu K. D. Uşinski yazmışdır: "Bəs su, bəs geniş çöl, bəs təbiət... bizim tərbiyəçilərimiz olmamışdırmı?". Bu fikir bir daha sübut edir ki, uşaqları ətraf aləmlə, təbiətlə tanış etmək, müşahidələrini istiqamətləndirmək onlarda təbiətə məhəbbətin formalaşmasına güclü təkan verən amillərdəndir.

Tərbiyəçi "Payız fəsli ilə tanışlıq" mövzusunu keçərkən canlı və cansız təbiətdə, havaların soyuması ilə əlaqədar bitki və heyvanat aləmində baş verən dəyişikliklərdən, onların təbii mühitə uyğunlaşmasından söhbət açır.

Təbiət özünün rəngarəng gözəlliyi ilə uşağın qəlbində gözəl duyğular oyadır. Vətənpərvərlik hissinin qaynaqlarında təbiət gözəllikləri ilə bağlamaq daha yaxşı olardı. Uşaqda vətən məhəbbəti, qarşısında nəyi görüb heyran qalırsa, oradan başlayır. Uşaq hər bir addımda təbiətdən zövq alır, müsbət mənada təəccüblənir. Təbiətdəki gözəllikləri görüb dərk etməyi qiymətləndirməyi, onun sərvətlərini qorumağa səy göstərməyi öyrətmək tərbiyə işində əsas vəzifələrdəndir.

Ulu öndərimiz Heydər Əliyev təbiətin insan həyatındakı rolunu qiymətləndirir və onun qorunması məsələsini irəli sürərək təbiəti sevməyi, onun sərvətlərindən şüurlu surətdə istifadə etməyi dəfələrlə qeyd edirdi.

Təbiət zəngindir, lakin onun sərvətləri heç də tükənməz deyildir, ona görə də insan ondan ağıllı və qayğıkeş sahiblər kimi istifadə etməlidirlər. Bu hiss də uşaqlara aşılanmalıdır. Gərək uşaqlar doğma təbiətin gözəlliyini sadəcə olaraq görməklə kifayətlənməsinlər, bunları öz mənəvi həyatlarının dolğunluğu kimi hiss etsinlər. Təbiət uşaqlar üçün o zaman hədsiz dərəcədə əziz olar ki, onlara sevinc gətirsin, onu qoruyan insanlar qarşısında borc hissi ilə birləşsin. Vətənimizin təbii sərvətlərini qorumağı, onlardan düzgün istifadə etməyi, təbiətin tükənmədən insanlara xidmət etməsini və onların həyatını bəzəməsini nəzərə alaraq onun qayğısına qalmağı bütün uşaqlara dəfələrlə xatırlatmaq lazımdır.

Təbiətin böyük dostu M. Prişvin yazırdı ki, biz təbiətimizin sahibiyik, o isə bizim üçün günəşlə birlikdə həyatımızın sərvətlərini qoruyan xəzinədir. Bu xəzinəni qorumaqla bərabər, onu aşkara çıxarmaq və göstərmək lazımdır.

Tərbiyəçi təbiətin bütün obyektlərinin birinin digəri ilə bağlılığını uşaqlara dərk etdirməlidir.

Məktəbəqədər yaşın bütün mərhələlərində uşaqları təbiətə yaxınlaşdırmaq, onlarda təbiətə məhəbbət oyatmaq, təbiəti sevdirərək ona qayğıkeş münasibət bəsləməyi aşılamaq lazımdır.

**Natavan ƏFƏNDİYEVA,**
**şəhər 3 saylı körpələr evi uşaq bağçasının müdiri.**